“Dünyada zahid ol, Allah səni sevsin, insanların əlindəkinə də göz dikmə, insanlar səni sevsin”

Əbul-Abbas Səhl bin Sə'd əs-Səidi (Allah ondan razı olsun) demişdir: Bir kişi Peyğəmbərin (sallallahu aleyhi va səlləm) yanına gəlib dedi: “Ey Allahın elçisi! Mənə elə bir əməl öyrət ki, mən onu edəndə, məni həm Allah, həm də insanlar sevsin”. Peyğəmbər (sallallahu aleyhi va səlləm) belə buyurdu: “Dünyada zahid ol, Allah səni sevsin, insanların əlindəkinə də göz dikmə, insanlar səni sevsin”.

[قال النووي: حديث حسن] [رواه ابن ماجه وغيره بأسانيد حسنة]

Bir kişi Peyğəmbərdən (sallallahu əleyhi və səlləm) onu, həm Allahın, həm də insanların sevgisini qazandıracaq bir əmələ yönəltməsini istədi. Peyğəmbər (sallallahu aleyhi va səlləm) ona belə dedi: Əgər dünyada artıq olan şeyləri, axirətə faydası olmayanları və dininə zərər verə biləcək şeyləri tərk etsən, bu zaman Allah səni sevər. Əgər insanların əlində olan dünya malına tamah etməsən, bu zaman insanlar səni sevər. Çünki insanlar təbiətcə dünyanı sevirlər. Kim onlarla bu dünya malı uğrunda rəqabət apararsa, ona qəzəblənər, kim dünyanı onlara buraxarsa, onu sevərlər.

http://www.sunnah.global/hadeeth/az/show/4307